Müəllif:
**Beka Kvaçadze,**
**İrakli Peradze**

Müəlliflər qrupu:
**Qiorqi Uqulava**

Metodist
**Lela Kakaşvili**



# TARİX

# 11

II HİSSƏ

## ŞAGİRD KİTABI

Qrif Gürcüstan Təhsil və Elm Nazirliyi
tərəfindən 2023-cü ildə verilmişdir.

სულაკაურის
გამომცემლობა

Tarix 11  II hissə
Şagird kitabı

Müəlliflər: **Qiorqi Uqulava, Beka Kvaçadze, İrakli Peradze, Lela Kakaşvili**
Redaktor **Nino Qoqaladze**
Dizayner **İa Maxatadze**
Texniki dizayner **Qiorqi Lomsadze**

Birinci nəşr, 2023
© Sulakauri nəşriyyatı, 2023
İllüstrasiyalar © **Varlam Cmuxadze** – səh. 103
Kartoqraf © **Murman Melkadze**

Bütün hüquqlar qorunur.
"Sulakauri nəşriyyatı" MMC
Ünvan: Davit Ağmaşenebeli 150, Tbilisi 0112
Tel.: 291 09 54, 291 11 65
El-poçt: info@sulakauri.ge

ISBN 978-9941-37-469-2

History 11 Part 2
Student's Book

© Sulakauri Publishing, 2023
All rights reserved.

Tbilisi, Georgia
www.sulakauri.ge

# Mündəricat




I mövzu
## Orta əsrlər 6

Fəsil 1
### Orta əsrlərdə Roma İdeyası və Səlib yürüşləri dövrü 8

1-2. Makedonlar sülaləsinin hökmranlığından sonra Bizans İmperiyası hansı çətinliklərlə üzləşdi? 10

3-4. Şərqdə güclü Səlcuq Türk İmperiyası necə formalaşdı? 24

5-6. Frank imperiyasının süqutundan sonra Qərbi Avropada Roma ideyası necə bərpa oldu? 38

7-8. Nə üçün XI-XII əsrlərdə dini və dünyəvi hakimiyyətlər bir-birinə qarşı çıxdılar? 55

9-10. Səlib yürüşləri nə üçün başladı? 70

11-12. Birinci Səlib yürüşü Avropanı və Şərqi necə dəyişdi? 88

13-14. Səlib dövrü hansı mühüm hadisələrlə səciyyələnir? 105

15-16. Avropada şəhərlərin xüsusi inkişafına hansı amillər dəstək verdi? 126


**Hədəf anlayışları**

- Vaxt
- Məkan
- Hakimiyyət
- Mənbə
- Cəmiyyət
- Tarixi hadisə/proses


Fəsil 2
### XIII-XIV əsrlərdə Avropa və Şərq dünyası 152

17-18. Monqol istilaları şərq dünyasını necə dəyişdi? 154

19-20. Osmanlı dövləti necə yüksəldi? 174

21-22. XIII-XIV əsrlər Avropası necə dəyişdi? 189

23-24. Teymur Ləng vahid Monqol İmperiyasını bərpa etməyə necə cəhd etdi? 207


**Hədəf anlayışları**

- Məkan
- Cəmiyyət
- Vaxt
- Hakimiyyət
- Cəmiyyət
- Tarixi hadisə/proses



# I mövzu

## Son orta əsrlər və erkən yeni dövr 228

**Hədəf anlayışları**

- Cəmiyyət
- Məkan
- Tarixi hadisə/proses
- Cəmiyyət
- Mənbə
- Vaxt


FəSİL 3

## Orta əsrlərdən yeni dövrə qədər (XV-XVI) 230

**25-26. Osmanlı türkləri Bizans imperiyasını necə məhv etdi? 232**

**27-28. Humanizm və intibah dövrü Avropa dünyasını necə dəyişdi? 248**

**29-30-31. Böyük coğrafi kəşflər necə və nə üçün başladı? 265**

**32-33. Avropada protestant islahatı nə üçün başladı? 291**

**34-35. XVI əsr Avropa və Yaxın Şərqdə hansı mühüm hadisələrlə xarakterizə olunurdu? 310**


**Hədəf anlayışları**

- Hakimiyyət
- Cəmiyyət
- Məkan
- Tarixi hadisə/proses
- Mənbə


FəSİL 4

## Avropada və Şərqdə mütləqiyyət dövrü 340

**36. Hollandiya inqilabı Avropa monarxiyalarına necə təsir etdi? 342**

**37-38. Otuz illik müharibə (1618-1648) nə üçün Avropada başladı? 351**

**39. Nə üçün İngiltərədə kralla parlament arasında vətəndaş müharibəsi başladı? 370**

**40. Fransada mütləq monarxiya necə formalaşdı? 384**

**41. İranda Səfəvilər sülaləsi necə möhkəmləndi? 403**

**42. I Pyotr qədim Rusiyanı necə Avropa dövlətinə çevirdi? 412**



# I mövzu
# Uzun XIX əsr 428


**Hədəf anlayışları**

- Hakimiyyət
- Cəmiyyət
- Məkan
- Tarixi hadisə/proses
- Vaxt

Fəsil 5 **Dünya inqilablar və böyük dəyişikliklər dövründə** 430

43-44. Maarifçilik Qərb dünyasını necə dəyişdi? 432

45-46. Amerika Birləşmiş Ştatları necə yarandı? 447

47-48. İnqilab Fransanı necə dəyişdi? 467

49-50-51. Napoleon Avropa tarixini necə dəyişdi? 489

**Hədəf anlayışları**

- Tarixi hadisə/proses
- Məkan
- Cəmiyyət

Fəsil 6 **Vyana Konqresi və Britaniya Sülhü dövründə Avropa** 526

52-53. Sənaye inqilabı dünyanı necə dəyişdi? 528

54-55. Nə üçün XIX əsr Britaniya İmperiyasının şöhrət dövrü hesab olunur? 543

56-57. Rusiya necə Şərqdə əsas siyasi qüvvəyə çevrildi? 557

58-59. 1848-ci il və Krım müharibəsi Avropa reallığını necə dəyişdi? 573

**Hədəf anlayışları**

- Tarixi hadisə/proses
- Cəmiyyət
- Məkan
- Mənbə
- Hakimiyyət

Fəsil 7 **Qlobal dəyişikliklər dövrü** 594

60-61. Romantik millətçilik nə üçün vahid İtaliyanın yaranmasına səbəb oldu? 596

62-63-64. Nə üçün Amerikada vətəndaş müharibəsi başladı? 610

65-66. XIX əsrdə Yaponiya və Çin necə inkişaf etdi? 631

67-68. Almaniyanın birləşməsi Avropanı necə dəyişdi? 648

I mövzu

# Son orta əsrlər və erkən yeni dövr


Fəsil 3 Orta əsrlərdən yeni dövrə qədər (XV-XVI) 230

Fəsil 4 Avropada və Şərqdə mütləqiyyət dövrü 340






**Martin Lüter Vittenberq kilsəsinin qapısına 95 tezis asır.**

FƏSİL

3

# Orta əsrlərdən yeni dövrə qədər (XV-XVI)

XV-XVI əsrlər Avropada və Şərqdə qlobal əhəmiyyətli tarixi hadisələrlə seçilir. Bu əsrlər zamanın kəsişməsidir.

**Tarixə addım atın: Papanın dünyanı İspaniya və Portuqaliya arasında necə böldüyünü öyrənin.**

XV əsrin ortalarında Osmanlı türkləri Konstantinopolu ələ keçirərək Bizans İmperiyasını darmadağın etdilər, bundan sonra Yaxın Şərqdə siyasi və mədəni reallıq dəyişdi. XV əsrin ikinci yarısı Avropada humanizm və intibah dövrüdür - intibah dövründə Avropa cəmiyyətinin təfəkkür tərzi dəyişmiş və mədəniyyətin bir çox sahələri yeni zirvələrə çatmışdı. Tezliklə böyük coğrafi kəşflər dövrü başlayır, Avropa dövlətlərinin uzaq dəniz ekspedisiyalarına çıxdığı bir dövr. Böyük coğrafi kəşflər mövcud coğrafi məkan haqqında düşüncə və təsəvvürləri əsaslı surətdə dəyişmiş, cəmiyyətin həyatının bütün sahələrinə böyük təsir göstərmişdir. Həmin dövrdə Avropa dünyasının çox hissəsinə yayılan, protestant islahatı kimi tanınan, dini islahat həyata keçirilməyə başlayır.

Bu fəsildə Osmanlıların Bizans İmperiyasını necə məhv etdiyini; Humanizm və Renessansın Avropa cəmiyyətinin düşüncə və mədəniyyətini necə dəyişdiyini; coğrafi kəşflərin necə başladığını; Protestant islahatının nə olduğunu və Avropa dünyasına necə təsir etdiyini; o cümlədən, XVI əsrin Avropa və Yaxın Şərqdə hansı mühüm hadisələrlə səciyyələndiyini öyrənəcəksiniz.

**Xristofor Kolumbun ekspedisiyası**






**Əsas hadisələr**

## KOMPLEKS TAPŞIRIQ 3



**Kompas - səyahətçilərin ayrılmaz atributudur**

### Zaman xətti: dəyişikliklər dövrü

Dərslikdə təqdim olunan XV-XVI əsrlərin mühüm hadisə və proseslərini təsvir edən paraqrafları diqqətlə oxuyun. Hər bir paraqrafdan ən mühüm tarixi hadisəni xronoloji ardıcıllıqla, bu barədə istinad edilən mənbə ilə birlikdə təqdim etdiyiniz zaman xəttini yaradın.

**İşinizi təqdim etdikdə, xüsusilə göstərin:**

- Hər bir paraqrafdan qlobal əhəmiyyət kəsb edən tarixi hadisələr və onların əhəmiyyətinin əsaslandırılması *(Tarixi hadisə, əs.təs. 1,3, Vaxt, əs.təs. 1,2);*
- Hər bir paraqrafdan sizdə bu paraqrafda təsvir edilən hadisə, dövr və məkan haqqında daha çox təsəvvür yaradan mənbələri təqdim edin *(Mənbə, əs.təs. 1,2,3);*
- Bu hadisələrin əhəmiyyətini və həmin dövrdə coğrafi məkanın və ideyaların necə dəyişdiyini izah edin *(Məkan, əs.təs. 1,3, Tarixi hadisə, əs. təs.1,2);*
- Hansı növ mənbələri seçdiyinizi və onların şərhi və etibarlılıq dərəcəsini necə müəyyənləşdirəcəyinizi əsaslandırın *(Mənbə, əs.təs. 1,2,3).*

**Anlayış**

- Tarixi hadisə
- Vaxt
- Mənbə
- Məkan

Şagird dəftərində işlənir

# 25-26. Osmanlı türkləri Bizans İmperiyasını necə məhv etdilər?

**Anlayış:**
tarixi hadisə; mənbə

**Əsas sual:**
Osmanlılar Konstantinopolu necə fəth edə və Bizans məkanını saxlaya bildilər?

**Annotasiya:**
XI əsrin ikinci yarısından başlayaraq, türklər Kiçik Asiya yarımadasının bir çox ərazilərində əsaslı şəkildə möhkəmləndilər. Kiçik Asiyanın itirilməsi Bizans İmperiyasını xeyli zəiflətdi. XIII-XIV əsrlərdə Bizans imperiyasının başında duran Paleoloqlar sülaləsi öz mövqelərini bərpa edib böhrandan çıxa bilmədi. XIII əsrin sonunda Bizans İmperiyasının sərhədində, Kiçik Asiya yarımadasında təcavüzkar işğalçılıq siyasəti ilə seçilən Osmanlı Sultanlığı quruldu. Bizans əraziləri hesabına tədricən genişləndi. Osmanlıların əsas məqsədi Konstantinopolu ələ keçirmək idi. XV əsrdə Osmanlı Sultanlığı qüdrətli hərbi qüvvəyə çevrildi və Bizans İmperiyası onların hərbi təcavüzünə qarşı çıxa bilmədi. Bizans Avropada xilaskar axtarmalı olsa da, xristian dünyası açıq təhlükəyə baxmayaraq, birləşə bilmədi. 1451-ci ildə II Məhməd Osmanlı sultanı oldu. O, Konstantinopolun işğalını özünün əsas məsələsi hesab edir və uzun hazırlıq işlərindən sonra, 1453-cü ilin yazında imperiya şəhərinin süqutu ilə başa çatan və tarixin yeni mərhələsinə başlayan Konstantinopolun mühasirəsinə başlayır.

**"Osmanlı türkləri bir vaxtlar qüdrətli bir imperiyanın tək bir şəhərin divarları arasında qalan kiçik bir qalığını ələ keçirdilər".**

*Edvard Qibbon, XVIII əsr Britaniya tarixçisi*

## XV əsrin birinci yarısında Bizans İmperiyası ətrafında vəziyyət necə idi?

Bizans kimi tanınan Şərqi Roma İmperiyası orta əsrlərin axırlarında son illərini yaşayırdı. Erkən orta əsrlərdə Bizans İmperiyası bütün xristian dünyasının siyasi, mədəni və iqtisadi mərkəzi olduğunu iddia etsə də, XI əsrdən etibarən, bir çox səbəblərdən qaynaqlanan uzun bir tənəzzül dövrü başladı. Artıq bildiyiniz kimi, 1071-ci ildə Bizans üçün ən böyük zərbə Manazgird döyüşündən sonra Kiçik Asiya yarımadasının böyük bir hissəsini itirməsi oldu. Aqrar cəhətdən inkişaf etmiş, sərvətləri və əhalisi ilə zəngin olan Anadolu türklərin əlinə keçdi və Bizans Balkanların nisbətən kasıb bir hissəsi ilə qaldı. Bizans üçün 1204-cü ildə Konstantinopolun venesiyalılar və fransızlar tərəfindən tutulması da dağıdıcı oldu. İmperiya bərpa olunsa da, iqtisadi baxımdan Bizans İtaliya şəhər dövlətlərindən asılı olaraq qalırdı.

**Mənbə 1**

**David Yakob, müasir yəhudi tarixçisi**

"...XIV əsrdə venesiyalıların və genuyalıların Egey, Bosfor və Qara dənizlər bölgəsində iqtisadi təsiri daha da gücləndi. İtalyan dəniz nəhəngləri üçün Konstantinopol bir növ ticarət mərkəzini təqdim edirdi... Egey dənizi hövzəsi və Bizans imperiyasının nəzarətində olan ərazilərdə venesiyalıların iqtisadi təsiri ilə yanaşı, siyasi təsiri də durmadan artırdı".

Bizans İmperiyasının qalan hissəsi iqtisadi və siyasi cəhətdən zəifləsə də, mədəni cəhətdən öz mövqeyindən əl çəkmirdi. Coğrafi mövqeyinə görə Bizans mədəni, dini və sosial cəhətdən fərqli xalqlarla birbaşa həmsərhəd idi. Bizans məkanına qərbdən Avropa, şərqdən türk dünyası düşməncəsinə yanaşırdı. Bizans dünyasında hətta XV əsrdə də "biz və barbarlar" münasibəti qorunub saxlanılmışdı, oradakı siyasi və mədəni dairələrdə bir çoxları hələ də ətraf xalqların onlara bərabər olmadığına inanırdılar.

**1410-cu ilə qədər Egey hövzəsi**

**1**



Həqiqət isə tamamilə fərqli idi. Qərbi Avropa XI-XIII əsrlərdə sürətlə inkişaf etməyə başladı, Kiçik Asiyada Osmanlı sultanlığı da uğurla inkişaf edirdi. Bizans İmperiyası iqtisadi və siyasi tənəzzülü davam etdirərkən, sürətlə inkişaf edən iki dünyanın ortasında qaldı.

**Mənbə 2**

**Donald Nikol, XX əsr İngilis tarixçisi**

"...X-XII əsrlərdə qərb və şərq qonşuları kimi, Bizans məkanı da demoqrafik tərəqqi yaşayırdı. Lakin o, avropalılardan və türklərdən fərqli olaraq, hərbi və iqtisadi qurumları yenidən təşkil edə bilmədi. Gələcəkdə hər iki güc Bizans İmperiyasının bu zəif cəhətlərindən istifadə etdilər".

XIV əsrdə Osmanlı Sultanlığı tədricən gücləndi. Bizans İmperiyası əvvəllər də türklərlə əlaqədə olsa da, osmanlıların hərəkətləri, onların digər bütün türk dövlətlərindən fərqli məqsədlərə malik olduğunu açıq şəkildə göstərirdi. 1362-ci ildə osmanlılar Balkanların ən mühüm şəhəri Adrianopolu tutdular və son olaraq imperiyanın Balkan hissəsində möhkəmləndilər. XIV əsrin 60-cı illərindən Bizans İmperiyasının əsas məsələsi özünü Osmanlı təcavüzündən qorumaq oldu.

**Tapşırıq**

**1 Yadınıza salın**

Osmanlı türkləri digər türk dövlətlərindən nə ilə fərqlənirdi və onlar üçün Bizans imperiyasına qarşı döyüşmək niyə vacib idi?

**2 Müzakirə edin**

Niyə Bizans İmperiyası Avropa dünyası kimi inkişaf edə bilmədi? Hansı amillər buna mane olurdu?

Artıq bildiyiniz kimi, XIV əsrin sonu, Kosovo (1389) və Nikopol (1396) döyüşlərindəki qələbədən sonra qüdrətli Osmanlı sultanı I Bəyazid İldırımın Balkanlarda mövqelərini möhkəmləndirdiyi və bütün diplomatik və hərbi resursları Konstantinopolu ələ keçirməyə yönəltdiyi zaman, çox çətin oldu. O dövrdə Konstantinopol şəhəri hər tərəfdən Osmanlı Sultanlığının əraziləri ilə əhatə olunmuş bir növ adaya bənzəyirdi. Konstantinopolun quru blokadası 1394-cü ildə başladı və iki il sonra Nikopolda onu xilas etməyə gələn Avropalı səlibçilərin məğlubiyyətindən sonra Bizansın vəziyyəti ümidsiz oldu.

**Mənbə 3**

**Xəlil İnalcık, XX əsr türk tarixçisi**

"...Konstantinopol ərazimizin mərkəzində yerləşirdi, düşmənlərimizi qoruyur, onlara himayədarlıq edir, onları bizə qarşı təhrik edirdi, buna görə də şəhərin ələ keçirilməsi ölkəmizin və xalqımızın təhlükəsiz gələcəyini təmin edəcəkdi".

Çıxılmaz vəziyyətdə olan Bizans imperatoru II Manuel Paleoloq (1391-1425-ci illər) hərbi və siyasi yardım istəmək üçün Avropaya yola düşdü. 1400-cü ilin mayında Venesiyada oldu, iyunun 3-də Parisə gəldi, payızda onun səfirləri İspaniya kral sarayında qəbul edildi, 1401-ci ilin fevralında isə London parlamentində oldu.

Sözügedən dövrdə Avropa dövlətlərinin Osmanlı Sultanlığına qarşı uzun və uzaq hərbi yürüşlər aparmaq üçün lazımi hərbi resursları yox idi. Müvafiq olaraq, Bizans imperatoru Avropada səmimi qarşılansa da, bütün Qərb dövlətlərinin monarxları və hakim dairələri maliyyə yardımı ilə məhdudlaşdılar.



**II Manuel Paleoloq Londonda IV Henri ilə görüşür**

1